# Lider yolunun təntənəsi




**Bu il yanvarın 20-də Prezident İlham Əliyevin Davosda Çinin China Global Television Network telekanalına müsahibəsində dövlət başçımız ötən dövrün yekunlarını təhlil edərək belə bir konseptual nəticə hasil etmişdi - "Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik".**

Həqiqətən də, qlobal qütbləşmənin və ziddiyyətlərin dərinləşdiyi bir situasiyada proseslərdən nəinki itkisiz çıxmaq, üstəlik, qalib tərəf olaraq mürəkkəb bir konfiqurasiyanın hökm sürdüyü şəraitdə reallıqları lehinə dəyişə bilmək ərazi və əhali göstəriciləri ilə kiçik sayılan bir dövlət üçün müstəsna nailiyyətdir. Xüsusən nəzərə alsaq ki, bu nailiyyət dövlətçiliyin təməl prinsipləri sayılan müstəqillik və suverenlikdə ifadə olunur.

Fevralın 14-ü cənab İlham Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin tam bərqərar olunduğu bir şəraitdə keçirilən ilk prezident seçkilərinin mübahisəsiz qalibi kimi andiçmə mərasimindən bir il ötür. Məlumdur ki, hələ növbədənkənar prezident seçkilərinə qədər, ötən il yanvarın 10-da yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bəyan etmişdi ki, seçkilər bütöv bir dövrə yekun vurur. Ötən ilin bu günü Milli Məclisdə baş tutmuş andiçmə mərasimindəki fenomenal yaddaşa və müstəsna dövlətçilik təcrübəsinə əsaslanan çıxışı ilə cənab İlham Əliyev tam fərqli bir konfiqurasiyaya nail olunduğu yeni dövr üzrə prioritetlərimizi, o cümlədən daxili və xarici siyasət kursunun sərhədlərini aydın formada müəyyən etdi.

Dövlət başçısı ilk növbədə bildirdi ki, qarşıdakı dövr üzrə Azərbaycanın bu gün ən yüksək səviyyədə təmin etdiyi təhlükəsizliyi və müdafiəsini daha da gücləndirmək naminə ordu quruculuğu və hərbi sənayenin inkişafı prosesinə xüsusi önəm verməkdə davam edəcək. Məlumdur ki, Azərbaycan Respublikası konstitusion səviyyədə başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Lakin sirr deyil ki, bu gün özünü beynəlxalq ictimaiyyətin təmsilçisi kimi təqdim edən, lakin beynəlxalq hüquqa hörmətlə yanaşmayan subyektlər də daxil, bir çox dövlət üçün bu prinsip keçərli deyil. Xüsusən Vətən müharibəsində və antiterror tədbirlərində müstəsna qələbəmizin nəticəsi olaraq cənab İlham Əliyevin yaratdığı yeni reallıq fonunda biz bu güclərin riyakar mahiyyətinin üzə çıxdığının şahidi oluruq.

Cənab Prezident İlham Əliyev inaqurasiya mərasimindəki tarixi çıxışında bildirmişdi ki, biz İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq. Məhz bu məqsədlə sərhədlərimizin təhlükəsizliyinin daha da gücləndirilməsi zəruratdir. Dövlət başçısının təbiri ilə desək, bu, Azərbaycanı xarici risklərdən də qoruyacaq. Əlbəttə, Müzəffər Ali Baş Komandanın özünün də vurğuladığı kimi, bu gün biz Azərbaycan üçün təhdid görmürük, "çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək". Lakin unutmamalıyıq ki, ideoloji risklər sərhəd tanımır. Bu mənada dövlət başçısı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsinə həm də ideoloji risklərdən qorunma imkanı kimi baxır və bu məsələ yeni dövrdə də Azərbaycanın vacib prioritetlərindən olacaq.



Ümumiyyətlə, cənab İlham Əliyev üçün ideoloji bütövlük və tamlıq, azərbaycançılıq ideologiyası, ailə dəyərlərinin qorunması gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyəsində ehtiva olunur. Bu mənada əminliklə demək olar ki, ötən il fevralın 14-dən başlanan yeni epoxada ailə və məktəb tərbiyəsi istiqamətində dövlət siyasətinin daha çevik və effektiv metodlarla realizə olunmasına start verilib və cənab İlham Əliyev ardıcıl qələbələri ilə Azərbaycanın ən qüdrətli dövrünü başlatmaqla elə siyasi konfiqurasiya formalaşdırıb ki, xalqımız milli birliyin əhəmiyyətini tarixin heç bir dövründə olmadığı qədər yaxşı başa düşür.

Yeni dövrdə milli prioritetlərimizdən digəri ümumbəşəri dəyərlərə və beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərə sadiq qalmaqla xarici siyasət kursunda 3 konkret istiqamətin müəyyən olunmasıdır. Birincisi, Azərbaycan artıq əvvəlki qaydalarla - ikili standartla formalaşan riyakar qlobal nizamın şərtləri ilə hesablaşmaq niyyətində deyil. Əlbəttə, bunun da kökündə cənab İlham Əliyevin Heydər Əliyev siyasi kursuna arxalanaraq nail olduğu ciddi hərbi-siyasi, sosial və iqtisadi uğurlar dayanır. Dövlət başçısının andiçmə mərasimində hər bir Azərbaycan vətəndaşının qəlbini qürurlandıran formada qətiyyətlə dediyi kimi, "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!" Bu isə Bakıya özünün xarici siyasət kursunu daha rahat formada korreksiya etmək və yeni dövrün tələbinə uyğunlaşdırmaq imkanı verir. Məsələn, Azərbaycan artıq maskası yırtılmış beynəlxalq hüquq subyektlərinin riyakarlığına və ayırıcı xətlərdə ehtiva olunan selektiv siyasətinə dözmək niyyətində deyil. Ona görə də yeni dövrün memarı olaraq cənab İlham Əliyev beynəlxalq fəaliyyətdə prioritet olaraq türk dünyası ilə əlaqələri müəyyən edir.

Xarici siyasət kursumuzun ikinci vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Sirr deyil ki, əvvəllər regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olsaq da, məhz mövcud siyasi iradənin qətiyyəti ilə Azərbaycan artıq həmin dövrləri geridə qoyaraq özünü qlobal oyunçu kimi təsdiq edib. Cənab İlham Əliyevin dediyi kimi, əks halda 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatının sədri etməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar verməzdi. Bu gün isə hədəfimiz zəfər qazanmış, reallıqlar yaratmış, lider dövlətin haqlı mövqeyi üzərində bərqərar olunub və biz Ermənistanın timsalında hansısa üçüncü dünya dövləti ilə münasibətlərə vaxt ayırmaq yox, lider qlobal subyektlərdən biri kimi iqlim dəyişiklikləri, islamofobiyaya və neokolonializmə qarşı mübarizədə dünyanı narahat edən problemlərin həllində daha fəal olmağı planlaşdırırıq. Ermənistanla münasibətlərə gəlincə, yeni dövr üçün cənab İlham Əliyevin bu istiqamətdə yol xəritəsi kifayət qədər aydındır. Azərbaycan bu məsələdə qlobal manipulyatorlara meydan verməyəcək - bu məsələnin əhəmiyyətinin süni şəkildə şişirdilməsinə lüzum yoxdur.

Prezident İlham Əliyev iqtidarının əsas diqqətçəkən xüsusiyyətlərindən biri də dayanıqlı inkişafın dövlət siyasətinin mütləq prioritetinə çevrilməsi oldu. Daxili sabitlik, xalq-iqtidar birliyi Prezident İlham Əliyevə çoxşaxəli islahatları reallaşdırmağa, çoxvektorlu dövlət siyasəti həyata keçirməyə imkan verdi. Nəticədə son 22 ildə bütövlükdə dövlətçilik tarixində olmadığı qədər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artırıldı, qlobal miqyaslı nəqliyyat-kommunikasiya sistemləri quruldu, təhsil, səhiyyə, idman infrastrukturu faktiki olaraq tam yeniləndi. Qısa haşiyə olaraq qeyd edim ki, İlham Əliyev hakimiyyəti illərində tikilən təhsil və idman obyektlərinin sayı bütün dövrlərdə mövcud olanlardan daha çoxdur.

Şərq-islam dünyası və özünəməxsus Qafqaz məfkurəsi Prezident İlham Əliyevi sözünün - vədinin sahibi, dar günün dostu, milli-mənəvi dəyərlərin himayəçisi, həssas ailə dəyərlərinin qatı mühafizəçisi, həmçinin sözünün kəsəri olan türk-müsəlman və Qafqaz kişisi kimi xarakterizə edir və istisnasız olaraq onunla hesablaşır. Qərb üçün isə İlham Əliyev beynəlxalq hüququ rəhbər tutan, müasir proseslərdən nəinki məlumatlı, üstəlik, modern tendensiyaları uğurla idarə edə bilən məharətli siyasi oyunçu, ikili standartlardan uzaq lider və xalqının milli hissiyyatını, dövlətinin maraqlarını rəhbər tutmaqla hər kəslə öz dilində danışmağı bacaran etibarlı tərəfdaşdır.

Dövlət başçısının məhz bu xüsusiyyətləri Azərbaycana milli maraqları qorumaqla artan müttəfiqliklər, qurulan sağlam və bərabərhüquqlu əməkdaşlıqlar şəbəkəsi formalaşdırmağa imkan verir. Nəticədə ölkəmizin regional statusunun əhəmiyyəti davamlı şəkildə artır və Azərbaycanın qlobal oyunçu kimi özünütəsdiqi baş verir.

Möhtərəm Prezident Qarabağ məsələsində məhz Ulu Öndərin direktivlərini rəhbər tutdu. İlk növbədə Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsi milli nüvə olaraq müəyyən edildi, bu məfkurə ilə həyata keçirilən sistemli sosial və siyasi tədbirlərin qanunauyğun nəticəsi kimi milli vəhdət tam bərqərar edildi. Azərbaycanda gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynamaqda olan yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik, ən əsası isə qələbəyə köklənmiş gənc nəsil formalaşdırıldı.

Bütövlükdə ötən 22 illik dövrü təhlil etsək, aydın şəkildə müşahidə edə bilərik ki, Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı Qarabağın və Şərqi Zəngəzurun azadlığına bir addım daha yaxınlaşdırdı. İlham Əliyev ilk növbədə həyata keçirdiyi məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlərlə ölkəmizi iqtisadi cəhətdən tam müstəqil olan suveren gücə çevirməyə nail oldu. Güclü iqtisadiyyat isə hərbi-müdafiə qüdrətinin rəhnində dayanan amildir. Prezident İlham Əliyev Azərbaycanı regionun hərbi-siyasi gücünə çevirərək, 30 illik işğal faktoruna cəmi 44 gün ərzində son qoyaraq milli missiyanı tamamladı. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Beləliklə, 2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər bütövlükdə bölgənin taleyini dəyişdi. İlk növbədə bizə məğlub və zəif kimi baxanlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin iradəsi qarşısında əyilməyə, "dəmir yumruq" ətrafında birləşmiş xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi qəbul etməyə məcbur oldu.

Ümumiyyətlə, Vətən müharibəsi, həm aralıq cəza əməliyyatları, həm də antiterror tədbirləri zamanı Prezident İlham Əliyev bizə illər uzunu nələrisə öyrətməyə, yaxud təlqin etməyə çalışan beynəlxalq birliyə ustad dərsləri keçdi.

Birincisi, BMT Təhlükəsizlik Şurasının 30 il müddətində icra edilməyən qətnamələrini icra etməklə Azərbaycan beynəlxalq hüququn aliliyini təmin etdi. İkincisi, milyonların həyatına qəsd edib bizə beynəlxalq humanitar hüquqdan dərs keçmək istəyənlərə mülki insanları hədəfə almadan müharibə və antiterror tədbirləri aparmağın yolunu göstərdi.

Bu gün artıq Prezident İlham Əliyevin Azərbaycanı yeni prioritetlər müəyyənləşdirib. Zəfərdən cəmi 8 gün sonra Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Qarabağ və Şərqi Zəngəzura səfər edən İlham Əliyev Azərbaycan tarixinin ən böyük Zəfərinin ardınca tariximizin irihəcmli quruculuq-bərpa prosesinə start verib.

Böyük qələbənin nəticəsində Müzəffər Ali Baş Komandanın yaratdığı yeni reallıq da Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük qayıdış strategiyasının tükənməz aktuallığını təmin edir. Bütün işlər Azərbaycanın öz imkanları hesabına həyata keçirilir və dünya bir daha görür ki, İlham Əliyev necə qüdrətli bir dövlət qurub. İşğala son qoyulmasından cəmi 4 il yarım keçir, amma artıq bölgədə iki beynəlxalq hava limanı uçuşları qəbul edir, 2025-ci ildə isə üçüncüsü, Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır.

Prezident İlham Əliyev şəxsiyyət, həmçinin türk dünyası üçün də tarixi şans hesab edilir. Çünki mövcudiyyəti dövründə türk xalqları heç vaxt bu qədər yaxın, bu qədər vahid amal uğrunda birləşməyə nail olmamışdı. Xüsusən tarixi Şuşa Bəyannaməsi ilə ən ali səviyyəyə ucalan Azərbaycan-Türkiyə münasibətləri bütün türk dünyası üçün ümid yerinə çevrilib.

Əlbəttə, bu reallığı görmək istəməyən beynəlxalq subyektlər var və anlayırıq ki, bundan sonra da olacaq. Lakin bir nəfər kimi İlham Əliyevin ətrafında birləşən Azərbaycan xalqı əmindir ki, artıq güclü-qüdrətli dövlətimiz üçün böhtanlar, qarayaxmalar önəm daşımır və qalib Azərbaycan hər kəsə layiq olduğu formada cavab verməyi bacarır. Çünki İlham Əliyev məhz Heydər Əliyevin arzu etdiyi, uğruna ömrünü qurban verdiyi qüdrətli Azərbaycan dövlətçilik modelini təqdim edə bilib. Bu isə artıq ümumbəşəri dəyərlərin milli maraqlarla uzlaşmasına nail olmuş Lider yolunun təntənəsidir. Bu məqamda yenidən yazının əvvəlindəki istinad etdiyimiz - Prezident İlham Əliyevin China Global Television Network telekanalına müsahibəsində səsləndirdiyi tezisin aktuallığı önə çıxır. "Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. İyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq".

*Bəhruz MƏHƏRRƏMOV,*
*Milli Məclisin deputatı*

/Azərbaycan. - 2025.- 14 fevral (№ 33).- S.9.